**Əliağa Bayram oğlu ƏZİMZADƏ**
Qərbi Kaspi Universitetinin doktorantı
E-mail: eliaga.ezimzade.phd@wcu.edu
ORCID ID - 0000-0001-5071-2418

# QLOBALLAŞMANIN İNKİŞAF TƏMAYÜLLƏRİ

**Xülasə**

Müasir dövrdə tez-tez rastlaşdığımız qloballaşma termini ölkələrin qarşılıqlı inteqrasiyasını təmin edən nəhəng prosesə verilən addır. Bu prosesi meydana gətirən səbəblər, inkişaf mərhələləri, göstərdiyi təsirlər həmişə müzakirə mövzusu olmuşdur. Xüsusilə son dövrlər dünyada baş verən müharibələr, siyasi qütbləşmələr, pandemiya və digər hadisələr qloballaşmanın inkişafını sual altında qoymuşdur. Bəzi fikirlərə görə qloballaşmanın sürətinin azaldığı, de-qloballaşma prosesinin getdiyi bildirilsə də, bəzi fikirlər isə tam əksinə qloballaşmanın texnoloji inkişaf səbəbindən daha da sürətləndiyini, rəqəmsal müstəviyə keçdiyini qeyd edirlər. Məqalədə qloballaşmanın mahiyyətini anlamaq üçün bu prosesin başlanğıcı və tarixi inkişaf mərhələləri ilə bağlı məlumatlar nəzərdən keçirilmiş, müxtəlif müəlliflərin fərqli fikirləri qeyd olunmuşdur. Həmçinin qloballaşmanın özündə ehtiva etdiyi alt proseslər, onu meydana gətirən səbəblər və təsir göstərdiyi sahələrə də toxunulmuşdur. Məqalədə qloballaşmanın ən çox müzakirələrə səbəb olan sahəsi, iqtisadi qloballaşma, onun tarixi inkişafı və bu prosesin əsas "oyunçu"ları olan transmilli korporasiyaların rolundan da bəhs edilmişdir. Qloballaşmanın ən çox özünü göstərdiyi iqtisadi qloballaşmanın inkişafında da texnoloji inkişaf mühüm rol oynayır. Bundan əlavə məqalədə 20 və 21-ci əsrin qloballaşma tendensiyaları müqayisə olunmuş, texnoloji inkişafın təsiri ilə bu prosesin mahiyyətini saxlamaqla formasını dəyişdiyi qeyd olunmuşdur. Nəticədə qloballaşmanın fayda əldə etmək üçün bir vasitə və imkan olduğu, əsas məqsədin bu prosesin dayandırılması və ya zəiflədilməsi deyil, bu prosesdən istifadə edərək maksimum fayda götürmək olduğu göstərilmişdir.

**Açar sözlər:** Qloballaşma, iqtisadi qloballaşma, transmilli korporasiya

**UOT:** 336
**JEL:** E57
**DOI:** https://doi.org/ 10.54414/UYGC4499

**Giriş**

Son 5 ildə dünyada yaşanan COVİD-19 pandemiyası, müharibələr, keçmiş münaqişə ocaqlarının yenidən alovlanması, siyasi qütbləşmənin getdikcə dərinləşməsi qloballaşma prosesinə yenidən nəzər salınmasına zərurət yaratmışdır. Xüsusilə Şərqdə münaqişələrin genişlənməsi qloballaşmanın ölkələri inteqrasiya etdirən, bütünləşdirici bir proses olmasını sual altında qoymuşdur. Bu səbəbdən qloballaşmanın necə bir proses olduğunu, onun inkişaf istiqamətlərini müəyyənləşdirməyə ehtiyac vardır. Məqalədə qloballaşmanın tarixi inkişaf mərhələlərinə nəzər salınmış, onu meydana gətirən səbəblər, təsir göstərdiyi sahələr və xüsusilə qloballaşmanın ən çox təsirini göstərdiyi sahə kimi iqtisadi qloballaşma təsvir olunmuşdur. Qloballaşma mövzusu ilə bağlı müxtəlif sahələrə aid zəngin ədəbiyyat mövcud olduğundan məqalə hazırlanarkən bir çox elmi ədəbiyyat araşdırılmışdır. Xüsusilə bu mövzuda əsas müəlliflərdən sayılan Tomas Fridman, Frensis Fukuyama, Roland Robertson, Noam Çomski, Samuel Hantinqtonun, həmçinin Köksal Akbaş və Dünyamalı Vəliyevin əsərlərindən istifadə edilmişdir.

**Tarixi inkişaf mərhələləri**

Qloballaşmanın mahiyyətini anlamaq üçün ilk öncə onun inkişaf tarixinə nəzər salmaq lazımdır. Elmi ədəbiyyatlarda axtarış apararkən qloballaşma prosesininin nə zaman başlandığı və hansı tarixi mərhələlərdən keçdiyi ilə bağlı müxtəlif müddəalarla qarşılaşırıq. Bir müddəa qloballaş-

manın böyük coğrafi kəşflər dövründən başladığını [1, s.153] bildirsə də, İmanuel Vallerşteyn qloballaşmanın kapitalist iqtisadi əsasının 16-cı əsrin əvvəlində qoyulduğunu qeyd edir. Ronald Robertson qloballaşmanın tarixi inkişafını 5 əsas mərhələyə bölmüşdür:

1) Avropada kilsə hakimiyyətinin zəifləməsi və millətçiliyin meydana gəlməsi (1400-1750-ci illər)

2) Milli dövlətlərin yaranması, beynəlmiləlçilik və universalizmin ilkin mərhələsi (1750-1875-ci illər)

3) Vahid beynəlxalq cəmiyyət ideyasının meydana çıxması, qlobal təqvimin yaranması, birinci dünya müharibəsi, kütləvi miqrasiyalar, qeyri-avropalıların da daxil olduğu Milli Dövlətlər Klubunun yaranması ilə xarakterizə olunan üçüncü mərhələ (1875-1925-ci illər)

4) Hegomonluq uğrunda mübarizə, Millətlər Liqasının, BMT-nin və üçüncü dünya dövlətlərinin yaranması

5) Kosmik tədqiqatların aparılması, qlobal ərtaf mühit problemləri, qlobal medianın inkişafı ilə yadda qalan beşinci mərhələni isə müəllif qeyri-müəyyənlik mərhələsi adlandırır. (1969-1992-ci illər) [2, s.58].

C.Aktan və H.Şenin fikrincə isə qloballaşmanın birinci dalğası 1870-1914-cü illər arasında baş vermişdir. Bu dövrdə dənizçiliyin inkişafı, teleqrafın icad olunması, dəmir yolları şəbəkəsinin genişlənməsi vəsitəsilə "Qərb" bir sıra uzaq ölkələri öz təsiri altına almağa başlamışdır. 1914-cü ildə Birinci Dünya Müharibəsinin başlanması, 1929-cu ildə dünya iqtisadi böhranı və nəhayət İkinci Dünya Müharibəsi qloballaşmanın sürətini xeyli zəiflətmişdir. [3, s.10] Fridman isə qloballaşma prosesinin iki mərhələdən ibarət olduğunu qeyd edir:

1) 19-cu əsrin ortalarından başlayıb, 1920-ci illərin sonuna qədər davam edən birinci mərhələ

2) SSRİ-nin dağılmasından sonra başlayan və hələdə davam edən ikinci mərhələ

Fridmanın bölgüsündən aydın olur ki, qloballaşma prosesində fasiləyə səbəb SSRİ-nin yaranması ilə ikiqütblü dünyanın formalaşmasıdır. SSRİ-nin marjinal siyasəti və sosialist ölkələrinin qapalı mühiti dünya səviyyəsində bu prosesin yayılmasını ləngitmişdir. Qloballaşma prosesinin siyasi və iqtisadi inkişafına nəzər saldıqda ötən əsrin 80-cı illərinin sonu 90-cı illərinin əvvəllərində soyuq müharibənin bitməsi, sosialist dövlətlərinin tənəzzülü və Berlin divarının yıxılmasının qərbin liberal iqtisadi nəzəriyyələrinin qələbəsi olduğunu görə bilərik. G.Tompson qeyd edir ki, 90-cı illərin əvvəlində hər kəs qərbi təqlid etməyə başladı. Nəticədə dövlətlər öz institutlarını və idarəetmə fəlsəfələrini qərbə uyğunlaşdıraraq geniş özəlləşdirmə proseslərinə başladılar. 1988-1998-ci illər ərzində ideologiyasından asılı olmayaraq bir çox ölkədə dövlət aktivlərinin azaldılması hesabına özəl sektorun payı artırıldı və tədricən dünya iqtisadi səhnəsində özəl sektor yeni "oyunçu" kimi dövlətləri əvəz etməyə başladı. Və bu proses yeni bazarların (maliyyə, xidmət, istehlak), yeni "aktyor"-ların ( Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, beynəlxalq QHT-lər və s.), yeni qayda və normaların ( fərdiləşdirilmiş liberalizm, demokratiya, insan hüquqları hərakatı), yeni, ucuz və surətli əlaqə vasitələrinin (internet) yaranmasına səbəb oldu. [4, s.3138] Qloballaşmanın nə zaman başlanması və hansı mərhələlərdən ibarət olması ilə bağlı müxtəlif fikirlər olsa da SSRİ-nin süqutu ilə soyuq müharibənin bitməsi və "təkqütblü" dünyanın formalaşmasının bu prosesə ciddi təkan verməsi barədə tədqiqatçılar həmfikirdirlər. Qloballaşmanın tarixi nəticələri ətrafında gedən müzakirələri 3 qrupda birləşdirmək mümkündür:

1) Tək qütblü dünya- SSRİ-nin süqutu nəticəsində 1990-cı illərin əvvəllərindən etibarən dünyada liberal-demokratik ideologiya yayılmağa başlamış və dünya təkqütblü siyasi vəziyyətə gəlmişdir.

2) İqtisadi qloballaşma – Dünya tarixdə bənzəri olmayan şəkildə iqtisadi cəhətdən bütünləşmiş və qloballaşmışdır.

3) Milli dövlətin sonu – Tək qütblü dünyanın, iqtisadi qloballaşmanın və Avropa İttifaqı nümunəsində regional bütünləşmənin nəticəsində milli dövlətlər öz funksiyalarını itirməyə başlamışdırlar. [5, s.9]

**Qloballaşmanı meydana gətirən səbəblər və təsir sahələri**

Qloballaşmanın mahiyyətinə nəzər saldıqda J.A.Şolt "Qloballaşma: Tənqidi giriş" adlı əsərində qloballaşmanın özlüyündə 5 anlayışı ehtiva etdiyini bildirir: beynəlmiləlləşmə, liberallaşma, universallaşma, qərbləşmə (və ya modernləşmə) və deterritorizasiya. [6, s.17]

1) Beynəlmiləşmə dedikdə- İnsanların, kapitalın, investisiyaların, informasiyanın və ideyaların ölkələrarası sərhədləri aşaraq surətli hərəkəti başa düşülür.

2) Liberallaşma- iqtisadiyyatın üzərində sərt dövlət tənzimləməsinin aradan qalxmasıdır.

3) Universallaşma- Qloballaşma prosesinin dünyanın istənilən nöqtəsinə təsiri başa düşülür. Çünki qloballaşma dedikdə çin restoranları, alman avtomobilləri, amerikan "fast food"-u və yapon texnologiyası başa düşülür.

4) Qərbləşmə- Bu anlayış modernləşmə yaxud amerikanlaşma kimi də adlandırılır. Modernləşmənin sosial strukturlarının (kapitalizm, rasionalizm, sənayeləşmə, bürokratizm) bütün dünyada yayılaraq yerli mədəniyyətləri və özünü idarəetməni zərbə altında qoymasıdır.

5) Deterritorizasiya- Qloballaşma sosial məkanda coğrafi sərhədlərin və məsafələrin aradan qalxması ilə səciyyələnir. [7, s.29]

Qloballaşmanı meydana gətirən səbəblər arasında 3 əsas faktorun rolu qeyd olunur:

1) Texnoloji inkişaf faktoru
2) İdeoloji faktorlar
3) İqtisadi faktorlar

**Texnoloji inkişaf faktoru-** 1980-cı illərdən etibarən xüsusilə informasiya texnologiyaları sahəsində baş verən inqilabi yeniliklər məsafələri ciddi maneə olmaqdan çıxarmış və məsafələrin səbəb olduğu zaman sərfiyyatı xeyli dərəcədə azaltmışdır. Misal üçün, bir zamanlar 2000 vuruşluq bir mesajı teleqrafla göndərmək üçün 10 dəqiqə vaxt sərf olunurdusa indi elektron poçt vasitəsilə bu proses sadəcə bir neçə saniyəmizi alır. Bununla da deyə bilərik ki, texnoloji inkişaf faktoru qloballaşmanın səbəblərindən və bu prosesi sürətləndirən amillərdəndir.

**İdeoloji faktorlar -** İkinci dünya müharibəsindən sonra başlayan "Soyuq müharibə" SSRİ-nin çöküşüylə sona çatmış, ikiqütblü dünya siyasi-iqtisadi sistemi öz yerini kapitalist bazar iqtisadiyyatına və qərbin liberal demokratik "dəyərlər"-inə vermişdir.

**İqtisadi faktorlar-** 1970-ci illərdə ortaya çıxan neft böhranı dünyanın iqtisadi cəhətdən yenidən formalaşdırılması ehtiyacını yaratmışdır. Elə bu dövrdən başlayaraq ölkələrin xarici bazarlara çıxma cəhdləri, kompüter texnologiyalarının inkişafı ilə yaranan "virtual iqtisadiyyat", transmilli korporasiyaların sərhədləri aşaraq genişlənməsi, ABŞ və Böyük Britaniya tərəfindən tətbiq edilən sərbəst ticarət siyasəti bugünki iqtisadiyyatın radikal inkişafına səbəb olmuşdur. [8, s.2224]

**Qloballaşmanın təsir göstərdiyi sahələr**

Teylor və Flintə görə bugün qloballaşma analizləri 8 fərqli sahəni özündə birləşdirir: iqtisadi qloballaşma, siyasi qloballaşma, sosial qloballaşma, texnoloji qloballaşma, maliyyə qloballaşması, coğrafi qloballaşma, mədəni qloballaşma və ekoloji qloballaşma. BMT-nin İnsan İnkişaf Hesabatında (2000) qeyd olunur ki, qloballaşma dörd fərqli sahədə yeniliklər gətirmişdir :

1) Yeni bazarlar (valyuta birjaları qlobal şəkildə bir-birinə bağlıdır və 24 saat fəaliyyətdədir)

2) Yeni vasitələr ( İnternet resursları, mobil telefonlar, media şəbəkələri)

3) Yeni "aktyorlar" ( Ümumdünya Ticarət Təşkilatı, BVF, Aİ)

4) Yeni qaydalar (dövlətlərin səlahiyyətlərini məhdudlaşdıran və onları bir-birinə daha çox bağlayan ticarət, xidmət və intellektual mülkiyyət sahəsində çoxtərəfli razılaşmalar)

Digər tərəfdən qloballaşma prosesinə marksist nöqteyi-nəzərdən yanaşan tədqiqatçılar onun mahiyyətini məhz K.Marksın Kommunist Partiyasının Manifestindəki sözləri ilə ifadə edirlər: "Ən qədim milli sənaye sahələri məhv edilmiş və hər gün məhv edilməkdədir. Bunları yeni sənaye sahələri sıxışdırıb aradan çıxarır, yeni sənaye sahələrinin işə salınması bütün mədəni millətlər üçün ölüm-dirim məsələsi olur və bu sahələr daha yerli xammalı deyil, yer üzünün ən uzaq guşələrindən gətirilən xammalı emal edir, təkcə həmin ölkənin öz daxilində deyil, habelə dünyanın hər yerində işlədilən fabrik məhsulları hazırlayır. Vətən məhsulları ilə ödənilən köhnə tələbat əvəzinə yeni tələbat meydana gəlir və bunu ödəmək üçün ən uzaq ölkələrin və ən müxtəlif iqlimli yerlərin məhsulları tələb olunur. Köhnə yerli və milli qapalılığın və öz istehsal məhsulları hesabına yaşamağın yerini millətlərin hərtərəfli əlaqəsi və onların bir-birindən hərtərəfli asılılığı tutur." Məhz bu fikrin tərəfdarlarından olan professor Li Sinq 1998-ci ildə nəşr olunan araşdırmasında yazır ki, son onilliklər ərzində ancaq 15 ölkə (onların çoxu qloballaşmadan daha çox "Soyuq müharibə" şəraitindən faydalanmış Şərqi Asiya ölkələridir) yüksək iqtisadi artım əldə etmişdir. 89 ölkə isə son on ildə iqtisadi cəhətdən zəifləmişdir.

Dünyanın 70 inkişafda olan ölkəsinin bugünki gəlir səviyyəsi 1960-1970-ci illərə nəzərən daha azdır. Onlardan on doqquzunda (Venesuela, Qana, Nikaraqua, Haiti və Sudan da daxil olmaqla) adambaşına düşən gəlir 1960-cı illərdən daha azdır. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) hesabatına əsasən bir çox ölkələrin hesabına bir neçə ölkə iqtisadi qazanc əldə edib və yaxud zənginlər daha da zənginləşib. Nümunə üçün hesabatda qeyd edilib ki, dünyadakı 358 milyarderin aktivləri dünya əhalisinin təxminən yarısını (45 faizini), 2.3 milyard insanı təşkil edən ölkələrin ümumi illik gəlirlərini üstələyir. [9, s.514]

Qloballaşmanın tək istiqamətdə getdiyini və "Qərbyönümlü" proses olduğunu iddia edənlərə qarşı dəlil olaraq Çinin hegomon gücə çevrilməsi göstərilir. Çinin Afrika, Latın Amerikası və Avstraliyada nüfuzunun artması onu göstərir ki, qloballaşmanı təkcə Amerikanlaşma ilə eyniləşdirmək olmaz. Bu qloballaşma prosesinin məhdud çərçivəyə sıxışdırılmasıdır. Və yaxud Amerikan "fast food" restoranlarında fransız və italyan inqrediyentləri ilə alman yeməklərinin (hamburger) təklif olunduğunun da şahidi ola bilərik. Eləcədə amerikan texnologiyasının Çində avropalı mühəndislərin iştirakı ilə istehsalı bunun başqa bir nümunəsidir. [10, s.1389] SSRİ-nin dağılması və Soyuq müharibənin sona çatması ilə "yeni dünya nizamı" adlandırılan sistem ortaya çıxmışdır. Bəzən bu anlayış qloballaşmaya sinonim olaraq istifadə edilir. Məşhur linqvist və siyasi nəzəriyyəçi Noam Çomskiyə görə yeni dünya nizamı hərbi siyasi baxımdan tək qütblü (ABŞ), iqtisadi baxımdan üç qütblü ( ABŞ, Avropa, Yaponiya) bir dünya yaratmağı planlaşdıran bir sistemdir. [11, s.36] Yeni dünya nizamı layihəsinin əsas fikir memarlarından olan Frensis Fukuyamaya görə isə artıq tarixin sonu gəlmişdir. O özünün "Tarixin sonu və son adam" (1992) adlı məqaləsində SSRİ-nin çöküşünü əsas olaraq götürmüş, "real kapitalizm"-in "real sosializm"-ə qalib gəldiyini, ideoloji məsələlərdən qaynaqlanan münaqişələrin sona çatdığını elan etmişdir. Onun fikrincə, bəşəriyyət tarix boyu axtardığını qərbin liberal demokratik dəyərlərində tapmışdır və alternativ dəyər sistemləri və mədəniyyətlər qərbin üstün dəyərlərinə boyun əyməyə məcburdur. Fukuyama qlobal cəmiyyətin siyasi sferada liberal demokratiyanı, iqtisadi sferada bazar iqtisadiyyatını, mədəniyyət sferasında isə qərb modernizmini mənimsəməsi nəticəsində bütünləşəcəyinə inanır. Məhz bu prosesi o, tarixin sonu adlandırır. [12, s.22] Lakin 1990-cı illərdə, dünyanın müxtəlif ölkələrində baş verən dini, milli, ideoloji münaqişələr, həmçinin liberal demokratiyanın və bazar iqtisadiyyatının bəzi nöqsanlı nəticələri F.Fukuyamanın tezisini sual altında qoydu. Bu tezisə tənqidi yanaşan Samuel Hantinqton dəyərlər və mədəniyyətlər arasındaki böhranın gedərək şiddətlənəcəyini və "Sivilizasiyaların toqquşması"na gətirib çıxaracağını qeyd etmişdir. Hantinqtonun fikrinə görə müasir dünyada münaqişələr ideoloji və iqtisadi səbəblərdən deyil, mədəniyyət problemləri səbəbindən yaranacaqdır. Hazırda mədəniyyətlər arasındakı sərhədlər gələcəyin cəbhə xəttlərini əmələ gətirəcəkdir. [13, s.10] Yapon alimi Keniçi Omaye "yeni dünya nizamı"-nın əsaslandığı qlobal iqtisadi sistemin 4 əsas faktorunu müəyyən etmişdir :

1) İnvestisiyaların coğrafi sərhədləri aşması
2) Sənayenin qlobal inkişafı
3) Elm və texnologiyanın inkişafı
4) Qlobal iqtisadi sistemin hərəkətverici qüvvəsi olan insan faktoru [14, s.9]

**İqtisadi qloballaşma**

Qloballaşma bir çox tədqiqatçılar tərəfindən iqtisadi bir anlayış kimi göstərilmişdir. Ancaq qloballaşmanı təkcə iqtisadi bir anlayış kimi göstərmək qloballaşma anlayışının mahiyyətini açmağı çətinləşdirir. Çünki qloballaşma təkcə iqtisadi deyil həmdə sosial, siyasi, mədəni istiqamətləri olan bir prosesdir. [15, s.32] Lakin dünyada investisiyalar sayəsində iqtisadiyyatlar bir-birinə daha çox bağlandığı və dünya iqtisadiyyatının tək iqtisadiyyat kimi inkişafı səbəbindən deyə bilərik ki qloballaşma özünü ən çox iqtisadi sahədə hiss elətdirir. [16, s.26] İqtisadi qloballaşma bir çox nəzəriyyəçilər tərəfindən kapitalizmin son variantı kimi qəbul edilir. Qloballaşmanın verdiyi kommunikasiya, sürət və səmərəlilik imkanlarından yararlanan kapitalizm bu prosesdə daha güclü və səmərəli olmuşdur. [9, s.506] Hammels qeyd edir ki, dünya ticarətinin təxminən yarısı bir-birindən 3000 km məsafədə yerləşən ölkələr arasında həyata keçirilir. Bu fakt özlüyündə dünyanın iqtisadi cəhətdən qloballaşmasının təzahürüdür. [17, s.2] İqtisadiyyatın qloballaşması və sərbəstləşməsi nəticəsində dünya ümumi bazara çevrilmiş, ölkələr arasında iqtisadi asılılıq

artmışdır. İqtisadi qloballaşmanın əsas məqsədi dünyada baş verən iqtisadi böhranlara qarşı qabaqlayıcı tədbirlər hazırlamaqla onların qarşısını almaq və aradan qaldırmaqdır. İqtisadiyyatın sürətlə qloballaşması əslində qloballaşmanın iqtisadi məqsədli olduğunu göstərir. [18, s.24] B.N.Çetinin tərifinə əsasən iqtisadi qloballaşma – milli təsərrüfatların vahid dünya iqtisadiyyatına çevrilməsi, ölkə bazarlarının xarici investisiyalar üçün açılması prosesidir. Bazarlar sürətlə qloballaşır. Bazarların qloballaşması dedikdə, əmtəə, xidmət və mobil mahiyyətə malik olan istehsal amillərinin sərbəst beynəlxalq hərəkəti başa düşülür. İqtisadi qloballaşma prosesini düzgün anlamaq üçün "qlobal iqtisadiyyat" və "dünya iqtisadiyyatı" anlayışlarını fərqləndirmək lazımdır. F.Brodell və U.Uollerşteynə görə "dünya iqtisadiyyatı" dedikdə dünya miqyasında kapital yığımı başa düşülür. Bu proses qərbdə 16-cı əsrdən başlamışdır. Manuel Kastelsin verdiyi tərifə görə isə qlobal iqtisadiyyat- bütün planet miqyasında real vaxt rejimində vahid sistem kimi işləyə bilən iqtisadiyyatdır. [7, s.65] İqtisadi qloballaşmanın meydana gəlməsi 1944-cü ildə Bretton Woods konfransı ilə bağlıdır. Bu konfransda yeni iqtisadi sistemin bütün qaydaları, qanunları və sərhədləri müəyyən edilmişdir. ABŞ dollarının dünyada sabit məzənnəsinin olması, ticarət sahəsində ölkələr arasında ortaq azad bazarların yaradılması, qlobal iqtisadi sistemdə mühüm rol oynayan təşkilatların (ÜTT, BVF, Tariflər və Ticarət üzrə Baş Saziş və s.) meydana gəlməsi bu konfransdan sonra baş vermişdir. 1944-cü ildə qüvvəyə minən Bretton Woods sistemi 1970-ci illərin əvvəlinə qədər davam etmişdir. Qüvvədə olduğu 30 il ərzində kapitalizmin qızıl dövrü adlandırılan sistem kapital üzərində dövlət nəzarəti siyasəti, tam məşğulluq və rifah dövlətinin inkişafı ilə yadda qalmışdır. 1971-ci ildə ABŞ prezidenti R.Nikson tərəfindən qızıl standartına əsaslanan sabit məzənnə rejimindən imtina edilmişdir. Bu qərardan sonrakı on il dünyada işsizlik, yüksək inflyasiya, dünya neft təchizatına nəzarət edən OPEC ölkələrinin qərarları nəticəsində yaranan iki enerji böhranı və bunun nəticəsində qlobal iqtisadi qeyri-sabitlik dövrü kimi xarakterizə edilir. 1973-cü ildə BVF ölkələri arasında Yamaykada keçirilən beynəlxalq konfransda valyutalar bazar qanunlarına tabe edildi və o konfransdan sonra məzənnələr tələb və təklif əsasında formalaşır. 1970-ci illərin iqtisadi qeyri-sabitlik dövründən çıxış yolu kimi M.Tetçer və R.Reyqan tərəfindən neo-liberal iqtisadi siyasət irəli sürülmüşdür. Bu iqtisadi siyasət üçün dünya iqtisadiyyatının sərbəstləşdirilməsi və iqtisadiyyat üzərində dövlət nəzarətinin zəiflədilməsi xarakterikdir. SSRİ-nin çöküşü ilə neoliberal iqtisadi siyasət bütün dünyaya yayılmağa başlamışdır. İqtisadi qloballaşma belə bir tarixi prosesi izləməklə indiki şəklini almışdır. [13, s.24] Beləliklə qloballaşma prosesində Keynsçi iqtisadi siyasət, liberal iqtisadi siyasətlə əvəz olunmuşdur. [18, s.268] İqtisadi qloballaşma ölkə iqtisadiyyatlarının dünya iqtisadiyyatına inteqrasiyasını yəni dünyanın vahid bazara çevrilməsini ifadə edir. İqtisadi qloballaşmanı digər tərifi ilə ifadə etsək o, ölkələr arasında investisiya, əmtəə və əmək mübadiləsinin artması nəticəsində iqtisadi əlaqələrin genişlənməsi və ölkələrin bir-birinə yaxınlaşmasıdır. [19, s.260] İqtisadi sahədə qloballaşmanın 3 istiqaməti vardır :

1) Ticarətin qloballaşması
2) Maliyyənin qloballaşması
3) İstehsalın qloballaşması [20, s.8]

İqtisadi qloballaşmanın əsasını təşkil edən nəzəriyyələrdən biri də "Vaşinqton konsensusu"-dur. Əsas məqsədi "Dünya hökuməti" yaratmaq olan bu nəzəriyyə neoliberlizmin təzahürü kimi də izah olunur. "Vaşinqton konsensusu" dünya iqtisadiyyatına öz ciddi təsirini göstərmişdir. Belə ki, inkişaf etmiş ölkələrdə iqtisadi münasibətlər bu konsensus əsasında formalaşmağa başlamışdır. Konsensus özündə inkişaf etməkdə olan ölkələrə bank və xarici ticarət haqqında qanunvericiliyin daha da liberallaşdırılması, vergilərin və bir sıra büdcə xərclərinin azaldılması, dövlət mülklərinin özəlləşdirilməsi, inflyasiyanın qarşısının alınması və xarici borcların restrukturizasiyası kimi tövsiyyələri ehtiva edir. Lakin Jozef Stiqlizin fikrincə bu tövsiyyələr kağız üzərində qalmaqla kifayətləndi və gözlənilən müsbət nəticələri vermədi. Çünki bu tövsiyyələr bazara kənar müdaxiləni ifrat dərəcədə məhdudlaşdırmış, nəticədə əhalinin maddi rifahının yüksəldilməsi və iqtisadi inkişafa təkan verilməsi üçün həyata keçirilən dövlət müdaxilələrinində qarşısı tamamilə alınmışdır. Bu tövsiyyələrin bir sıra iqtisadi böhranlara səbəb olması və ciddi tənqid olunması onun bir sıra müddəalarının yenidən işlənib hazırlanmasına zərurət yaratmışdır. J.Stiqliz tərəfindən hazırlanan

yeni tövsiyyələr "Postvaşinqton konsensusu" adlandırılır. Hirst ve Tompson iqtisadi qloballaşma anlayışına tənqidi yanaşaraq "Qloballaşma sual altında" adlı kitabda bütünləşmiş dünya iqtisadiyyatının olmadığını, daha çox müxtəlif ölkə iqtisadiyyatlarından ibarət beynəlxalq iqtisadiyyat mövcuddur. Onlara görə qloballaşmaya aid edilən bir çox iqtisadi fəaliyyət tarixdə müəyyən zamanlarda mövcud olmuşdur və dolayısı ilə qloballaşma yeni bir proses deyildir. [21, s.3]

**Transmilli korporasiyaların (TMK) qloballaşmaya təsiri**

Qloballaşma əleyhdarları 1913-cü ildə ölkə iqtisadiyyatlarının 1990-cı ildə olduğundan daha çox bir-birinə bağlı olduğunu bildirirlər. Lakin Birinci Dünya Müharibəsi, 1929-cu il böyük iqtisadi böhran və İkinci Dünya Müharibəsi bu iqtisadi bütünləşməyə mane oldu. Artıq ötən əsrin 90-cı illərində dünya iqtisadiyyatı yenidən bütünləşməyə başladı və burda əsas rolu TMK-lar oynayırdılar. [22, s.6] TMK-lar qloballaşma prosesinin əsas "aktyor"-larıdır. Hətta anti-qlobalistlərə görə tansmilli korporasiyalar qloballaşmanın mübarizə aparılmalı əsas elementlərindən biridir. [18, s.32] D.Vəliyevin qeyd etdiyi kimi qlobal bazarın yeni subyektləri TMK-lardır. [13, s.20] TMK-lara verilən təriflərə nəzər salsaq, bir tərifə görə şirkətin cəmi aktivlərinin 20%-i digər ölkədədirsə bu TMK-dır. Başqa bir fikrə görə isə şirkətin digər ölkələrdəki fəaliyyətindən əldə edilən mənfəət cəmi mənfəətin ən az 35%-ni təşkil edirsə bu şirkət TMK-dır. [23, s.37] TMK-nın ən başlıca xüsusiyyətlərindən biri fəaliyyətin mənsub olduğu ölkədən kənarda xarici ölkələrdə keçirilməsidir. Əsas kompaniya adətən "doğma" ölkədə, müxtəlif ölçüdə olan filiallar isə xarici ölkələrdə fəaliyyət göstərir. Bununda əsas səbəbi, xammal, ucuz işçi qüvvəsi, siyasi-iqtisadi mühit və s. amillərdir. Dünyada ilk müasir qlobal şirkət 1950-ci ildə Almaniyanın Uni şirkəti və İngiltərənin Level Brothers şirkəti tərəfindən birgə yaradılmışdır. İki şirkət birləşərək "Unilever" adını alıb, dünyanın 60 müxtəlif ölkəsində 500-dən çox filialı olan qlobal şirkətə çevrilmişdir. Transmilli şirkətlər bütün dünyanı əhatə edən texnologiyalar icad edərək, bir yerdə istehsal edilib hər yerdən istehlak oluna bilən məhsullar yaradaraq hər şəhərə, hər küçəyə daxil olaraq 21-ci əsrin "imperiya"-larına çevrilməkdədirlər. 2001-ci ilin məlumatlarına görə TMK-ların 79%-i ABŞ ya Avropa mərkəzlidir. Yaponiya ilə birlikdə bu rəqəm 91%-ə çatmışdır. [24, s.71]

Yüksək idarəetmə və təşkilati struktura malik olan TMK-ın baş qərargahlarının beşdə dördü ABŞ-da, Yaponiyada, Böyük Britaniyada, Almaniyada və Fransada yerləşmişdir. Bütün iri TMK-ın 30%-ə qədəri ABŞ-ın payına düşür. 1987-ci ilin məlumatına görə dünyanın 500 fəaliyyət göstərən nəhəng sənaye kompaniyalarının 183-ü ABŞ-ın, 97-si Yaponiyanın, 52-si İngiltərənin, 36-sı Almaniyanın, 27-si Fransanın, 16-sı Kanadanın və 13-ü İsveçrənin payına düşürdü. [18, s.25] TMK-ların müasir dövrdə əsas məqsədi mənfəətin maksimallaşdırılmasından çox, bazarların maksimallaşdırılmasıdır. [24, s.74] Onlar mənfəət əldə etməkdən çox istehsalın və xidmətlərin həcminin artırılmasına çalışırlar ki, bu da dolayı yolla onların mənfəətinin artmasına səbəb olur. TMK-lar həm satış həm də istehsalın həcmi baxımından sürətlə inkişaf edirlər. Bugün dünyada 35 minə qədər TMK fəaliyyət göstərirki, müqayisə üçün 1930-cu illərin sonunda onların sayı 30-dan çox deyildi. Hazırda onlar xarici kapital qoyuluşunun 90 %-nə nəzarət edirlər. TMK-ların fəaliyyət sahəsi müxtəlifdir. Araşdırmalara əsasən onların fəaliyyət sahəsinin 60 faizini istehsal təşkil edir. 37 %-i xidmət sferasında, 3%-i isə hasilat və kənd təsərrüfatında fəaliyyət göstərir. Bu korporasiyalar müasir texnologiyaların yayılmasında və beynəlxalq əmək miqrasiyasının stimullaşdırılmasındada mühüm rol oynayırlar. [25]

**Qloballaşma XXI əsrdə**

Bəziləri görə qloballaşmanın bir trend olduğunu və bir müddət sonra öz məşhurluğunu itirəcəyini iddia etsələr də çox keçmədən qloballaşma bütün həyatımızı təsiri altına almışdır. [13, s.4] Bu gün hər hansı bir məhsulun, informasiyanın, ideyanın müxtəlif istiqamətlərdə çox sürətlə hərəkət etdiyi dünyada yaşayırıq. B.Klintonun dediyi kimi varlı və ya kasıb, demokratik və ya avtoritar olmasından asılı olmayaraq heç bir millət qloballaşmanın gətirdiyi imperativ normalardan qaça bilməz. [26, s.2570] Xüsusilədə rəqəmsal mühitdə informasiya axını çox sürətlidir və milli dövlətlər bu qlobal informasiya axının qarşısını almaqda acizdirlər. Dünyanın bir tərəfində baş verən hər hansı bir hadisə barədə məlumat digər tərəfinə müasir kommunikasiya texnologiyaları sayəsində çox qısa zaman kəsiyində çatdırılır. Məhz bu fakt 21-

ci əsrdə qloballaşmanın əsas təkanverici qüvvəsinin texnologiyaların inkişafı olduğunu göstərir. Qloballaşma – hər şeydən əvvəl informasiyanın geniş yayılmasıdır. [27, s.129] Frensis Fukuyamanın "Tarixin sonu və sonuncu insan" kitabında qeyd etdiyi kimi, "Bu gün heç bir ölkə özünü qlobal mediadan və ya xarici informasiya mənbələrindən heç vaxt həqiqətən ayıra bilməz; Dünyanın bir küncündə başlayan tendensiyalar minlərlə mil uzaqda sürətlə təkrarlanır". [28, s.70] McKinsey Qlobal İnstitutunun 2016-cı ildə yayımladığı "Rəqəmsal qloballaşma: Qlobal axınların yeni erası" adlı hesabatında qloballaşma prosesinin 20-ci və 21-ci əsrdəki tendensiyalarını müqayisə etmişdir:

- Maddi aktivlərin axını informasiya kimi qeyri- maddi aktivlərin axını ilə əvəzlənmişdir,
- 20-ci əsrdə maddi aktivlərin dövriyyəsi İEÖ ölkələr arasında baş verirdisə 21-ci əsrdə artıq bu dövriyyə inkişafda olan ölkələr arasında baş verməkdədir,
- Ötən əsrdə ölkələr arasında daha çox kapital və əmək axını mövcud idisə günümüzdə bu yeri bilik axını tutur,
- 20-ci əsrdə axınların baş verməsi üçün nəqliyyət infrastrukturu vacib idisə 21-ci əsrdə rəqəmsal infrastrukdur daha önəmli rola sahibdir,
- 20-ci əsrdə axınların idarə olunması TMK-lar tərəfindən həyata keçirilirdisə, 21-ci əsrdə kiçik müəssisələr və fiziki şəxslərdə bu axınlara qoşula bilir,
- Keçən əsrdə ideyaların sərhədləri aşmasında müəyyən maneələr yaranırdısa, bu gün hər hansı bir informasiyanın qlobal şəbəkəyə yayılması bir neçə saniyəyə mümkündür,
- 20-ci əsrin sonlarında innovasiyalar inkişaf etmiş ölkələrdən inkişafda olan ölkələrə gəlirdisə, hazırda innovasiyalar hər iki istiqamətdə hərəkət edir.
- Getdikcə ümumdünya internet şəbəkəsi qlobal iqtisadiyyatı birləşdirən əlaqələri təmin edir. Nəzərə alın ki, dünyada ticarət edilən xidmətlərin təxminən 50 faizi artıq rəqəmsallaşdırılıb. Qlobal mal ticarətinin təxminən 12 faizi beynəlxalq elektron ticarət vasitəsilə həyata keçirilir. Transsərhəd Skype zəngləri ənənəvi beynəlxalq zənglərin həcminin 46 faizinə bərabərdir. [29]

2019-cu ilin sonunda başlayan və bugünədək davam edən Covid-19 pandemiyası qloballaşmanın yenidən müzakirəsinə yol açdı. [30, s.35] Pandemiya dövründə bir çox iş yerlərinin itirilməsi iqtisadiyyatda xeyli mənfi nəticələrə gətirib çıxartdı. Beynəlxalq Əmək Təşkilatının (İLO, 2021) hesabatına görə 2020-ci ildə qlobal iş saatlarında 8.8% azalma müşahidə olunmuşdur. Bu rəqəm 2008-ci il dünya maliyyə böhranında azalmadan 4 dəfə çoxdur. Qlobal işsizlik 1,1% artaraq 6.5% olmuşdur və işsiz sayı 33 milyona çatmışdır. Post-pandemiya dövrü yeni dünya nizamı maraqla qarşılanan bir mövzudur. Çünki böyük miqyaslı qlobal böhranlar radikal dəyişikliklərə yol açmışdır. J.Stiglitzə görə Covid-19 pandemiyası əsas siyasi və iqtisadi aktyorun hələ də dövlət olduğunu sübut etmişdir. R.Şillerə görə isə Covid-19 pandemiyasının qlobal iqtisadiyyata vurduğu zərbələr qloballaşmanın sonunu gətirmişdir. Pandemiya dövründə qloballaşmanın "reanimasiya"da olduğu, ancaq pandemiyadan öz problemlərindən təmizlənmiş şəkildə çıxacağı proqnozlaşdırılmışdır. [31, s.55] Çünki insanların həyatlarını asanlaşdıran texnologiyalar inkişaf etdikcə qloballaşma prosesinin müəyyən sahələrdə sürəti azalsada yenə davam edəcək. Lakin qloballaşma prosesində ciddi islahatlara da ehtiyac vardır. [32, s.296] BMT-nin keçmiş baş katibi Kofi Annan Minilliyin Sammitinə verdiyi hesabatda: "Bu gün üzləşdiyimiz əsas problem, - deyə o yazırdı, "qloballaşmanın milyardlarla insanı səfalət içində buraxmaq əvəzinə, bütün dünya insanları üçün müsbət qüvvəyə çevrilməsini təmin etməkdir".[33, s.301]

**Nəticə**

Yuxarıda qeyd edilən fikirlərə əsasən deyə bilərik ki, qloballaşma bir proses olaraq müharibələr, pandemiyalar, böhranlar kimi hadisələrin təsiri ilə öz sürətini azaltsa da davam etməkdədir. Bunun səbəbi isə qloballaşmanın təkanverici qüvvəsinin müasir texnologiyalar olmasıdır. Məhz müasir texnologiyaların inkişafı "sərhədlər"-i aradan qaldıraraq ölkələrin qarşılıqlı inteqrasiyasını təmin edir. Bugün ticarətin rəqəmsallaşması da qlobal iqtisadiyyatın inkişafında böyük əhəmiyyətə malikdir. Gündən-günə inkişaf edən və genişlənən sosial şəbəkələr vasitəsilə böyük ölçüdə qarşılıqlı informasiya axını isə bizə qloballaşmanın rəqəmsal müstəvidə güclü şəkildə davam etdiyini deməyə əsas verir. Bugün əsas mübarizə

özündə nəhəng informasiya, maliyyə, bu prosesdən bir vasitə kimi istifadə edərək fayda götürmək və digərlərinə təsir göstərmək uğrunda gedir. Hazırda əsas məqsəd bu prosesin dayandırılması və ya zəifləməsi deyil, fərdlərin, şirkətlərin və dövlətlərin ondan öz maraqları naminə maksimum faydalanmasıdır.

***Ədəbiyyat siyahısı:***


1. Valaskakis, K. Globalization as theatre. International Social Science Journal, 1999
2. Robertson, R. Globalization: Social Theory and Global Culture. London: Sage, 1992
3. Prof. Dr. Coşkun Can Aktan, Hüseyin Şen. GLOBALLEŞME VE TÜRKİYE. Mercek Dergisi, 1999
4. Sengupta, C. Conceptualising Globalisation: Issues and Implications. Economic and Political Weekly, 2001
5. COŞKUN, P. D. KÜRESELLEŞMEDEN GERİ DÖNÜŞ: KÜRESELLEŞME, YARI KÜRESELLEŞME VE TERSİNE KÜRESELLEŞME ÜZERİNE BİR TARTIŞMA. Kesit Akademi Dergisi, 2016
6. Scholte, J. A. Globalisation, Governance and Corporate . The Journal of Corporate Citizenship, 2001
7. Çetin, B. N. Küreselleşme Olgusunun Farklı Boyutlarıyla Toplumsal Yansıması: Küreselleşme Karşıtı Hareketler (Türkiye Örneği). Elazığ, 2008
8. Xing, L. Capitalism and Globalisation in the Light of the Communist Manifesto. Economic and Political Weekly, 1998
9. Jovanović, M. N. Is Globalisation Taking us for a Ride? Journal of Economic Integration, 2010
10. Pieterse, J. N. Globalisation and Culture: Three Paradigms Author. Economic and Political Weekly, 1996
11. Yılmaz ÜSTÜNER, E. Fuat KEYMAN. Globalization, Participatory Democracy, The Question of Organization. Ekonomik Yaklasim,1995
12. Huntington, S. The clash of civilizations? Foreign Affairs, 1993
13. AKBAŞ, K. KÜRESELLEŞME VE KÜRESEL ŞİRKETLERDE İNSAN KAYNAKLARI YÖNETİMİ. İSTANBUL, 2007
14. Oran, B. Hangi küreselleşme? Küreselleşme ve Ulus-Devlet, 2001
15. Steger, M. B. Ideologies of globalization. Journal of Political Ideologies , 2005
16. M.Fox, E. Globalization and Human Rights: Looking out for the Welfare of the Worst Off. Journal of International Law and Politics, 2002
17. Aytekin, İ. KÜRESELLEŞME VE EKONOMİK KÜRESELLEŞME. Sosyal Bilimler Enstitüsü Dergisi, 2013
18. Vəliyev, D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu nəşriyyatı, 2008
19. Yrd.doç.dr. Cahit Aydemir, Öğr.gör.dr.Mehmet Kaya. KÜRESELLEŞME KAVRAMI VE EKONOMİK YÖNÜ. Elektronik Sosyal Bilimler Dergisi, 2007
20. PAUL HIRST, GRAHAME THOMPSON. KÜRESELLEŞME SORGULANIYOR. Ankara: DOST, 2007
21. Graham Bird, Ramkishen S. Rajan. Banks, Financial Liberalisation And Financial Crises In Emerging Markets. World Economy, 2001
22. Afat, E. Karşı-küreselleşme hareketi: Küreselleşmeyi hedef alan küresel muhalefet. İstanbul, 2010
23. Atılgan, S. Küreselleşme Aldatmacası. Marmara İletişim Dergisi, 2007.
24. AQİL ƏLİYEV, ARİF ŞƏKƏRƏLİYEV, İDRİS DADAŞOV. DÜNYA İQTİSADİYYATI: MÜASİR DÖVRÜN PROBLEMLƏRİ. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2003
25. https://kof.ethz.ch/en/forecasts-and-indicators/indicators/kof-globalisation-index.htm
26. Norgaard, R. B. Beyond Growth and Globalisation. Economic and Political Weekly, 1999
27. Ali Ender Altunoğlu, Ömer Özpınar, Hüseyin Önlem Ersöz. KÜRESELLEŞMENİN İNSAN KAYNAKLARI POLİTİKALARI İLE SENDİKALARA ETKİSİ VE TÜRKİYE. Öneri Dergisi, 2009.
28. Friedman, T. L. The Lexus And The Olive Tree: Understanding Globalization, Updated and Expanded Edition. New York: First Anchor Book, 2000
29. https://www.mckinsey.com/capabilities/mckinsey-digital/our-insights/digital-globalization-the-new-era-of-global-flows

30. Cengiz, O. Kapitalizm, Küreselleşme ve Covid-19 Sonrası Yeni Dünya Düzeni. Uluslararası Politik Araştırmalar Dergisi, 2021
31. A.Atlı. Covid-19 Küreselleşmenin Sonunu mu Getirecek? T.C. Dışişleri Bakanlığı Stratejik Araştırmalar Merkezi- Covid-19 sonrası küresel sistem: eski sorunlar, yeni trendler, 2020
32. Acar, M. Küreselleşme. Orion yayınları, 2020
33. Ruggie, J. G. The United Nations and Globalization: Patterns and Limits of Institutional Adaptation. Global Governance, 2003

**Алиага Байрам оглы АЗИМЗАДЕ**
Докторант Западно-Каспийского университета
Электронная почта: eliaga.ezimzade.phd@wcu.edu
Идентификатор ОРКИДа - 0000-0001-5071-2418

## ТЕНДЕНЦИИ РАЗВИТИЯ ГЛОБАЛИЗАЦИИ

**Резюме**

Термин «глобализация», с которым мы часто сталкиваемся в наше время, — это название огромного процесса, обеспечивающего взаимную интеграцию стран. Причины, этапы развития и последствия этого процесса всегда были предметом дискуссий. Особенно недавние войны, политическая поляризация, пандемии и другие события в мире поставили под вопрос развитие глобализации. По некоторым мнениям говорится, что скорость глобализации снижается и идет процесс деглобализации, а по некоторым мнениям наоборот говорится, что глобализация ускоряется за счет технологического развития и перехода на цифровой уровень. Для понимания сущности глобализации в статье рассмотрены сведения о начале этого процесса и этапах исторического развития, отмечены разные мнения разных авторов. Также были затронуты подпроцессы, входящие в глобализацию, причины, которые ее создали, и области, где она оказала влияние. В статье также обсуждалась наиболее дискуссионная область глобализации, экономическая глобализация, ее историческое развитие и роль транснациональных корпораций, которые являются основными «игроками» этого процесса. Технологическое развитие играет важную роль в развитии экономической глобализации, которая является наиболее выраженной формой глобализации. Кроме того, в статье сравниваются тенденции глобализации XX и XXI веков и отмечается, что этот процесс изменил свою форму, сохранив при этом свою суть под влиянием технологического развития. В результате было показано, что глобализация – это средство и возможность получения выгод, и главная цель – не остановить или ослабить этот процесс, а получить максимальную выгоду, используя этот процесс.

**Ключевые слова:** Глобализация, экономическая глобализация, транснациональная корпорация.

**Aliaga Bayram AZİMZADE**
Doctoral student of Western Caspian University
E-mail: eliaga.ezimzade.phd@wcu.edu
ORCID ID - 0000-0001-5071-2418

## DEVELOPMENT TRENDS OF GLOBALİZATİON

**Summary**

The term globalization, which we often encounter in modern times, is the name given to a huge process that ensures the mutual integration of countries. The causes, stages of development, and effects of this process have always been the subject of discussion. Especially recent wars, political polarizations, pandemics and other events in the world have called into question the development of globalization.

According to some opinions, it is said that the speed of globalization is decreasing and the process of de-globalization is going on, but some opinions on the contrary say that globalization is accelerating due to technological development and moving to the digital level. In order to understand the essence of globalization, the article reviewed information about the beginning of this process and historical development stages, different opinions of different authors were noted. Also, the sub-processes included in globalization, the causes that created it, and the areas where it had an impact were also touched upon. The article also talks about the most discussed area of globalization, economic globalization, its historical development and the role of transnational corporations, which are the main "players" of this process. Technological development plays an important role in the development of economic globalization, which is the most manifested form of globalization. In addition, the article compares the globalization trends of the 20th and 21st centuries, and it is noted that this process has changed its form while keeping its essence due to the influence of technological development. As a result, it has been shown that globalization is a means and an opportunity to obtain benefits, and the main goal is not to stop or weaken this process, but to take maximum benefits using this process.

**Keywords**: Globalization, economic globalization, transnational corporation